# *TƏLİM TEXNOLOGİYALARI*
# *ОБУЧАЮЩИЕ ТЕХНОЛОГИИ*
# *LEARNING TECHNOLOGIES*

*UOT 371*

***Aida Babək qızı Zeynalova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## İBTİDAİ SİNİFLƏRDƏ ŞƏXSİYYƏTYÖNLÜ TƏLİMİN XÜSUSİYYƏTLƏRİ

***Аида Бабек гызы Зейналова***
*докторант по программе доктора философии*
*Азербайджанский Государственный Педагогический Университет*

## ОСОБЕННОСТИ ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННОГО ОБУЧЕНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Aida Babak Zeynalova***
*Azerbaijan State Pedagogical University*
doctor of philosophy in pedagogy
*Azerbaijan State Pedagogical University*

## CHARACTERISTICS OF PERSONALITY-ORIENTED EDUCATION IN ELEMENTARY GRADES

**Xülasə**. Məqalə ibtidai məktəb mərhələsində şəxsiətyönlü təlimin tətbiqi xüsusiyyətlərinə həsr olunmuşdur. Məqalədə şagird və müəllimin birgə fəaliyyətində təlim və layihə tapşırıqlarından istifadənin xüsusiyyətləri öz əksini tapır. İbtidai məktəbdə şəxsiyyətyönlü dərsin təşkili modeli, həmçinin kiçik yaşlı şagirdlərlə işləyərkən təlim fəaliyyətinin şəxsiyyətyönlü təşkilinə verilən tələblər və onların əsas məzmunu məsələləri təhlilə cəlb olunur.
***Açar sözlər:*** *şəxsiyyətyönlü təlim; şagirdyönlü dərs modeli; sosiallaşma; fərdiləşmə.*

**Резюме.** В данной статье рассматриваются особенности внедрения личностно-ориентированного обучения на этапе начальной школы. Раскрываются особенности использования учебных и проектных заданий при совместной деятельности ученика и учителя. Представлена модель организации личностно-ориентированного урока в начальной школе, а также требования к организации данной учебной деятельности при работе с младшими школьниками.
***Ключевые слова:*** *личностно-ориентированное обучение, модель личностно-ориентированного урока, социализация, индивидуализация*

**Summary.** This article discusses the features of the application of personalized education at the primary school level. Features of the use of training and project tasks are revealed in the joint activity of the student and the teacher. The model of organizing a personalized lesson in elementary school, as well as the requirements for organizing this training activity when working with young students, are presented.
***Keywords:*** *personalized training; student-oriented teaching model; socialization and individuation*

Şəxsiyətyönlü təlim – gələcək mütəxəssislərin hazırlanmasının mənəvi, intellektual və peşəkar səviyyələrinə müvafiq olaraq cəmiyyətin tələbləri nəzərə alınmaqla, təlim prosesinin şagirdlərin ehtiyaclarına, maraqlarına, meyllərinə və qabiliyyətlərinə uyğun təşkili kimi qəbul edi-

lir. Bu zaman təkcə bilik, bacarıq və vərdişlərə deyil, eyni zamanda şagirdin əxlaqına, xarakterinə, mədəniyyətinə, dünyagörüşünə, maraqlarına, intellektinə, münasibətlərinə, emosiyalarına, sağlamlığına və həyat tərzinə diqqət yetirilir. Bu pedaqoji paradiqma aşağıdakı əsas **postulatlara** əsaslanır:

1) hər bir fərdin dəyərini və onun unikallığını dərk etməsi;

2) hər bir şəxsiyyətin inkişafı üçün zəngin imkanların olması, o cümlədən onun özünün yaradıcılığını inkişaf etdirməsi;

3) daxili azadlığının prioriteti - yaradıcı inkişaf azadlığı;

4) özünüinkişafın yaradıcı təbiətini fərdin əks etdirici şüurunun ayrılmaz bir hissəsi kimi dərk etməsi. Bunun komponentləri də özünütanımaq, özünü idarəetmək, özünütəkmilləşdirməkdən ibarətdir. Bunlarla yanaşı, şəxsiyyətyönlü təhsil aşağıdakı bir sıra keyfiyyətlərin də formalaşmasını özündə ehtiva edir:

• şüurlu peşə seçimi;
• əxlaq tərbiyəsi və mədəniyyət;
• sosial məsuliyyət;
• özünüreallaşdırmaq, sosial tanınmaq istəyi;
• refleksiv şüur;
• dəyərlər;
• ətraf aləmə seçici münasibət, şəxsi mövqe;
• özünütəhsilə, özünüinkişafa istiqmətlənmək;
• həyatın mənasını axtarmaq;
• fərdilik, unikallıq.

Şəxsiyyətin inkişafı mürəkkəb prosesdir. İnkişaf prosesində şərti olaraq iki ümumi xətt fərqləndirilir - sosiallaşma və fərdiləşmə. Sosiallaşma, böyüyən bir insan tərəfindən sosial cəhətdən təsdiqlənmiş ideallların, normaların, davranış və fəaliyyət üsullarının mənimsənilməsi ilə əlaqələndirilir. Bu, uşaqlarda cəmiyyət, onun mədəniyyəti və həyat tərzi haqqında təsəvvürlərin formalaşmasına, onlarda sosial əhəmiyyətli keyfiyyətlərin inkişafına, insanlar arasında uyğunlaşma qabiliyyətlərinin və həyat mexanizmlərinin formalaşmasına kömək edir. Sosiallaşma insanda sosial cəmiyyət üçün xarakterik olanı formalaşdırır. İkinci xətt, fərdiləşmə, insanın fərdiliyinin formalaşması və təzahürü, onun təkrarolunmaz siması və daxili aləmi, özünəməxsus həyat tərzi ilə bağlıdır. Bu, şəxsiyyətə özü kimi olmaq və qalmaq imkanı verir. Fərdiləşmə insanda özünəməxsus xüsusiyyətlərə malik olan bir fərdin inkişafına kömək edir.

İbtidai siniflərdə şagirdlərin inkişafının hər iki ümumi xəttinin düzgün reallaşdırılması onların pedaqoji dəstəyə ehtiyac olduğunu zəruri edir.

Hal-hazırda ibtidai siniflərdə təlim praktikasına tətbiq olunmaqla yenilikçi, inkişaf edən, yaradıcı tip modelinə aid olan şagirdyönlü təhsil modeli getdikcə aktuallaşır. Şagirdyönlü təlim elə tətbiq edilir ki, burada uşağın şəxsiyyəti, onun orijinallığı, özünəməxsusluğu, hər birinin subyektiv təcrübəsi əvvəlcə aşkar edilir, sonra isə təhsilin məzmunu ilə əlaqələndirilir [6]. Şagirdyönlü təlim fərdi həyat fəaliyyətinin mühüm mənbəyi kimi, şagirdin özünün subyektiv təcrübəsinin inkişafına mühüm şərait yaradır.

Şəxsiyyətyönlü dərs modeli hər şeydən əvvəl, şagirdə təlim prosesində daha çox seçim azadlığı təmin etməsi ilə digər mövcud modellərdən əhəmiyyətli dərəcədə fərqlənir. Onun çərçivəsində müəllim tərəfindən müəyyən edilmiş təlim üslubuna uyğunlaşan şagird deyil, müxtəlif texnoloji üsullara malik olan müəllimin iş metodlarının uşağın idrak-öyrənmə üslubu ilə əlaqələndiməsi öz həllini tapır. Şəxsiyyətyönlü dərs ənənəvi dərsdən fərqli olaraq ilk növbədə “müəllim-şagird” qarşılıqlı əlaqəsinin formasını dəyişir [7].

Şəxsiyyətyönlü təhsildə müəllim, şagirdin prosessual fəaliyyəti kimi nəticələrinin təhlilinə diqqət yetirərək onunla əməkdaşlığa davam edir. Şagirdin mövqeyi dəyişir və çalışqan performansdan fəal yaradıcılığa doğru istiqamətlənir, yəni, onun düşüncəsi nəticəyə yönəlir. Sinifdə yaranan münasibətlərin xarakteri də dəyişir. Burada vacib olan odur ki, müəllim təkcə bilik verməməli, həm də şagirdlərin şəxsiyyətinin inkişafı üçün optimal şərait yaratmalıdır. Nəticə etibarılə, şagirdyönlü dərsin təşkilinin əsas xüsusiyyətləri əsasən konkret təlim metodları, şagirdlərin maraq və qabiliyyətlərinin nəzərə alınması, müəllimlə şagird arasında qarşılıqlı əlaqənin dərəcəsi və şagirdin bacarıqları ilə müəyyən edilir. Təlimin məzmununu, onun mənimsənilməsinin səviyyəsini və üsullarını seçmək şagirdyönlü təlimdə mühüm yer tutur. Bu cəhətdən ibtidai siniflərdə müəllim şəxsiyyətyönlü dərsin *qurulmasının aşağıdakı prinsiplərinə əsaslanmalıdır* [3]:

1. Fərdiliyin prioriteti. Bu, şagirdin təlim prosesinin əsas subyekti kimi tanınmasını nəzərdə tutur. Dərsdə hər bir şagirdin özünü ifadə etməsinə, onun tədris materialını seçmə qabiliyyətinin təzahürünə şərait yaratmaq lazımdır.

2. Dəyişkənliyin prioriteti. Hər bir şagirdin təlimdə özünü dərk etməsinin təmini müəllimin müəyyən mövqeyindən çox asılıdır. Bunun üçün dərsi xüsusi didaktik materialla təchiz etmək lazımdır ki, hər bir şagirdə öz maraqlarına, təfəkkür xüsusiyyətlərinə uyğun olaraq tapşırığın növünü və formasını seçmək imkanı yaranın.

3. Açıqlıq prinsipi. Bu, dərsdə müxtəlif ünsiyyət növlərindən istifadəni, dinləmə, qarşılıqlı anlaşma, təhsil dialoqunun təşkili yolu ilə həqiqətin birgə axtarışını əhatə edir. Şagirdyönlü təlimin əsas məqsədi fərdi qabiliyyətlərin və şəxsiyyət xüsusiyyətlərinin inkişafına nail olmaqdır [6].

Dərsdə tərbiyəvi dialoq təkcə təlim metodu deyil, həm də dərsin tərkib hissəsi, daxili məzmunudur. Bu baxımdan şagirdyönlü təlimdə şagirdlərin müstəqilliyinin fəallaşdırılmasına yönəlmiş problemli təlim stiasiyası üstünlük təşkil edir ki, burada da sinifdə qarşılıqlı əlaqənin əsas forması kimi cütlərlə işləmək və qrup işinin aparılması xüsusi yer tutur. Müəllim və şagirdlər təkcə fəaliyyətin nəticəsini deyil, həm də prosesi qiymətləndirir, şagird başqaları ilə deyil, özü ilə müqayisə edilir, uğura diqqət üstünlük təşkil edir [7].

Şəxsiyyətyönlü dərsdə müəllim koordinator, dialoqun təşkilatçısı rolunu öz üzərinə götürür. Hər bir şagirdin təliminin fərdi həyata keçirilməsi üçün ən əlverişli şərait yaratmaq məqsədilə onların şəxsi xüsusiyyətlərini nəzərə alaraq, şagirdlərin qruplara bölünməsinə kömək edir və təşkil edir.

Təlim problemlərinin həlli üçün optimal şəraitin birgə axtarışı və təhlili vacibdir. Bu, dərsdə təkcə şagirdlərin nəyi bildiyini və edə biləcəyini deyil, həm də təlim materialının mənimsənilməsi üzrə işlərini necə quracaqlarının, hansı vasitələrdən istifadə edəcəklərinin qiymətləndirilməsini nəzərdə tutur.

Şəxsiyyətyönlü təlim sistemində təlim prosesinin quruluşu tədris materialının xüsusi tərtibatı ilə məhdudlaşmır, bu da şagirdə onunla işləməkdə seçim azadlığını təmin edir. Bu materialdan müəllimin dərsdə necə istifadə etməsi vacibdir. Dərs tədris prosesinin əsas elementi olub və qalır, lakin şagirdyönlü təlim sistemində onun funksiyası və təşkili forması əhəmiyyətli dərəcədə dəyişir. Dərs zamanı müəllimin təqdim etdiyi məzmunla bağlı şagirdlərin təcrübəsinin müəyyənləşdirilməsi izlənilir [3].

Hər bir şagirdin subyektiv təcrübəsini, yəni təlim fəaliyyətində onun qabiliyyət və bacarıqlarını öyrənməni müəyyən etmədən şagirdyönlü yanaşmanı təsəvvür etmək mümkün deyil [8]. Amma onlar uşaqdır. Bildiyimiz kimi, onlar fərqlidirlər, hər birinin təcrübəsi sırf fərdi və müxtəlif xüsusiyyətlərə malikdir. Şagirdin şəxsiyyətinə yönəlmiş pedaqogika onun subyektiv təcrübəsini üzə çıxarmalı və ona tərbiyə işinin üsul və formalarını, cavabların xarakterini seçmək imkanı verməlidir. Eyni zamanda, təkcə nəticələr deyil, həm də onlara nail olmaq prosesi qiymətləndirilir.

Şagirdlər təkcə müəllimin nəqlini dinləmir, onunla daim dialoqda əməkdaşlıq edir, fikirlərini bildirir, məzmununu bölüşür, sinif yoldaşlarının təklif etdiklərini müzakirə edir, müəllimin köməyi ilə elmi biliklərlə təsbit edilən məzmunu seçir. Müəllim daima aşağıdakı kimi suallarla sinfə müraciət edir:

- siz bu barədə nə bilirsiniz:
- hansı əlamətləri, xassələri ayırd edə bilərsiniz (ad, siyahı və s.);
- sizcə, onlardan harada istifadə etmək olar;
- onlardan hansı ilə artıq tanış olmusunuz və s.

Bu dialoq zamanı düzgün (səhv) cavablar olmur, sadəcə fərqli mövqelər, baxışlar, nöqteyi-nəzərlər var, onları vurğulayaraq, müəllim daha sonra mövzunun mövqeyinə, didaktik məqsədlərə uyğun olaraq "işləməyə" başlayır. O, şagirdləri elmi biliklər baxımından təklif etdiyi məzmunu qəbul etməyə məcbur etməməli, əksinə inandırmalıdır. Bu zaman şagirdlər hazır nümunələri nəinki mənimsəyir, həm də onların necə əldə edildiyini, nə üçün bu və ya digər məzmuna söykəndiyini, onun təkcə elmi biliklərə deyil, həm də şəxsi əhəmiyyətli mənalara nə dərəcədə uyğun olduğunu dərk edirlər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarının tətbiqi və icrası çərçivəsində istifadə olunan təlim metodları və şagirdlərin təlim fəaliyyətinin

təşkili texnologiyaları da öyrənmənin diaqnostikası, formalaşan bilik və bacarıqların qiymətləndirilməsi metodları kimi nəzərə alınmalıdır. Belə bir dərs şəxsiyyətyönlü adlanır. Onun gedişində müəllim uşaqlara nəinki diqqət yetirir, həm də onlarla birlikdə mənimsənilməli olan biliyin elmi məzmununun axtarışı və seçilməsi üzərində iş aparır. Bu şəraitdə əldə edilmiş biliklər şəxsi əhəmiyyətli olur [3].

Müəllim və şagird bərabərhüquqlu tərəfdaşlar, heterogen, lakin zəruri təcrübənin daşıyıcısı kimi çıxış edirlər [6]. Şagirdyönlü dərsin əsas ideyası şagirdlərin fərdi təcrübəsinin məzmununu açmaq, onu verilmiş təcrübə ilə əlaqələndirmək, sosial əhəmiyyətli məzmuna çevirmək və bununla da bu məzmunun mənimsənilməsinə nail olmaqdır.

Təlimdə şagirdyönlü yanaşmanın həyata keçirilməsi şagirdlərdə ünsiyyət qurmaq, öz hərəkətlərini qiymətləndirmək və əsaslandırmaq, sərbəst danışmaq, müzakirədə fəal iştirak etmək bacarıqlarının inkişafına kömək edir [8]. Bu yanaşma sabit idraki prosesin və mövzuya marağın formalaşmasına xidmət edir. Belə nəticəyə gəlmək olar ki, şagirdyönlü təlim təhsil sistemində mühüm rol oynayır və təbii olaraq kiçik yaşlı şagirdlərin təlimində mövcud dəyişiklikləri əks etdirir, onların müstəqil və şüurlu fəaliyyətə hazırlaşmasına şərait yaradır.

Müasir təhsil təkcə Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarının tətbiqi kontekstində deyil, ümumiyyətlə, insan şəxsiyyətinin inkişafına, onun qabiliyyətlərinin, istedadlarının üzə çıxarılmasına, özünüdərkinin formalaşmasına, özünü reallaşdırmağa yönəldilməlidir. Belə olduqda məktəb də reallıqlara və sürətlə inkişaf edən informasiya mühitinin texnologiyalarına hazır olan müasir, bacarıqlı məzun hazırlamağa imkan verəcəkdir. Bu isə məktəbəqədər təhsildən başlayıb, ibtidai siniflərdə daha da inkişaf etdirilərək fasiləsiz təhsil üçün əsaslı zəmin yaradır.

Müasir təhsil hər bir şagirdin məqsədinə, ehtiyaclarına və maraqlarına cavab verən təlim materialı vasitəsilə öz hərəkət trayektoriyasını təyin etməyə geniş imkan yaradır. İbtidai siniflərdə şəxsiyyətyönlü təlimin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, müəllimlərin müxtəlif materiallardan istifadə etməklə şagird şəxsiyyətinə yönəlişliyi təmin edir. Tapmacalar, didaktik və rollu oyunlar, oyun və əyləncəli situasiyalar, şeyirli tapşırıqlar - bütün bunlar öyrənmə şəraitinin yaradılmasına yönəldilir və bunun sayəsində şagird özünü inkişaf etdirməyə, özünü tanımağa maraq göstərən bir subyektə çevrilir. Məhz belə şəxsiyyətyönlü təlimin texnologiyaları müasir təhsil üçün daha uyğun hesab edilir.

Lakin təkcə izahlı və illüstrativ təlim metodlarını əhatə edən ənənəvi tədris üsulu şəxsiyyətyönlü öyrənmənin mövcud olmasına imkan vermir. Uğursuzluqların əsas səbəbi tədris prosesinin dayaz strukturu və şəxsiyyətyönlü təlimin nəzəri əsaslarının səthi öyrənilməsidir. Şəxsiyyətyönlü öyrənmədə təlimin fərdiləşdirilməsi baş verir ki, bunun da məqsədi məktəblilərin təlim və idrak fəaliyyətini, keyfiyyətlərin formalaşmasını, emosional və mənəvi sferanın inkişafını təmin etməkdir.

Şəxsiyyətyönlü təlimin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, belə təlim dərsdə bir sıra şərtlərin təmin edilməsini nəzərdə tutur ki, bu da şagirdin pis qiymət almaqdan qorxmadan inkişaf etməsinə və öyrənməsinə şərait yaradır. Çünki, şagirdin sərbəst olması ona həm təlim səviyyəsini seçməyə, həm də mümkün olan təlim səviyyəsini tapmağa imkan verir, eyni zamanda həm də onun bütün fərdi xüsusiyyətləri burada nəzərə alınır [9].

Şəxsiyyətyönlü təlimin *üstünlüklərini* aşağıdakı kimi xarakterizə etmək olar:

• şagirdin daxili dünyasına və fərdiliyinə diqqət, onun təkrarolunmaz şəxsiyyətinə hörmət;

• şagird şəxsiyyətinin inkişafı üçün təhsilin istiqaməti;

• məzmunun qurulmasının və tədris metodlarının orijinallığı.

Lakin bunlarla yanaşı, şəxsiyyətyönlü təlimin zəif tərəflərinin də olduğunu nəzərdən qaçırmaq olmaz. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

•təhsilin məzmun və metodlarının müəyyən edilməsində şagirdlərin maraqlarının yenidən qiymətləndirilməsi sistemləşdirilməmiş biliyə, biliyin akademik səviyyəsinin aşağı düşməsinə, biliyin parçalanmasına gətirib çıxarır.

• bütövlükdə şəxsiyyətyönlü təlimi bütün məqamlarla siniflərdə və ya qruplarda həyata keçirmək çətindir, çünki, bir sinifdə şagirdlərin sayı təxminən 25-30 nəfər olur ki, bu da keyfiyyət baxımından bir o qədər səmərəli alınmır.

• subyektivlik prinsipi əsasında qurulan təlimdə şəxsiyyətin formalaşması üzərində işləyərkən şagirdlərin kollektiv idrak fəaliyyətini idarə etmək o qədər də asdan olmur [8].

Təbii ki, şəxsiyyətyönlü təlim texnologiyasının gələcəyi var. Həm də bu gün şəxsiyyətyönlü təlim texnologiyalarına kifayət qədər tələbat da vardır.

Şəxsiyyətyönlü təlim texnologiyaların mahiyyətini aşağıdakı kimi ifadə etmək olar (Şəkil 1).

*Şəkil 1.*

| **Əsas anlayışlar** | **Prinsiplər** | **Metodlar** |
|---|---|---|
| *Fərdilik<br>*Şəxsiyyət<br>*Özünü aktuallaşdırmış şəxsiyyət<br>*Öz müqəddəratını təyinetmə<br>*Özünü təsdiqləmə<br>*Seçim<br>*Özünü reallaşdırma<br>*Subyekt<br>*Subyektivlik<br>*Pedaqoji dəstək<br>*Mən-konsepsiyası | *Fərdiləşdirmə<br>*Subyektivlilik<br>*Özünü aktuallaşdırmış şəxsiyyət<br>*Seçim<br>*Yaradıcılıq və uğur<br>*İnam və dəstək | *Fəallıq<br>*Refleksiv<br>*Pedaqoji dəstək<br>*Seçim və müvəffəqiyyət situasiyasının yaradılması<br>*Diaqnostik<br>*Dialoq |

Şəxsiyyətyönlü təlim texnologiyaları çox geniş sahəni əhatə edir. Buna görə də, yaxın gələcəkdə gənc nəslin əksəriyyətinin öz həyat məqsədlərini ümumiyyətlə dərk etməsi imkanlarını genişləndirmək üçün müasir təhsil prosesinə şəxsiyyətyönlü təlim texnologiyalarını tətbiq etmək məntiqlidir. Faktlar göstərir ki, buna nail olmadan insan öz fikirlərini həyata keçirə və həyat üçün lazım olan keyfiyyət və bacarıqları müstəqil şəkildə inkişaf etdirə bilməyəcəkdir, bu isə o deməkdir ki, yaxın gələcəkdə şəxsiyyətyönlü təlim texnologiyaları daha populyar olacaqdır. Bu, yeni ideyalar yaratmaq, yaradıcı düşünmək; məlumatla bacarıqla işləmək və ünsiyyətcil olmaq, yeni fikirlər yaratmaq baxımından çox əlverişli olacaqdır.

Bütün bunlar müəllimin şagird şəxsiyyətinin bütün sahələrini, imkanlarını, ideallarını, ehtiyaclarını, fəaliyyət motivlərini dərindən öyrənməsini və bilməsini tələb etməklə və təlimdə şəxsiyyətyönlü bir yanaşma tətbiq etməklə formalaşdırıla və inkişaf etdirilə bilər.

Müasir şəxsiyyətyönlü təlimi müəyyənləşdirən nəzəri və metodoloji müddəalar E.V. Bondarevskaya, C.V.Kulneviç, T.I.Kulpina, V.V. Se rikova, G.K. Selevko, A.V.Petrovski, V.T. Fomenko, I.S.Yakimanskaya, V.S.Kukushina, N.N.Abramova, L.V. Kuklina və digər tədqiqatçıların əsərlərində geniş təqdim olunur. Hal-hazırkı təhsil nəzəriyyəsində şəxsiyyətyönlü təlimin inkişafına *üç əsas yanaşma* mövcuddur:

V.V. Serikovun konsepsiyasında şəxsiyyətyönlü yanaşma. Konsepsiya situasiya prinsipinə əsaslanır. Konsepsiyanın əsas anlayışları: mövzu, şəxsi təcrübə, şəxsiyyətyönlü pedaqoji vəziyyətdir [7, s.19-20, 27].

E.V. Bondarevskayanın konsepsiyasında fərdi və kulturoloji yanaşma. Konsepsiya mədəniyyət uyğunluğu prinsipinə əsaslanır. Əsas anlayışlar: mədəniyyət adamı, kulturoloji fərdi yanaşmadır [4, s.41-46].

I.S. Yakimanskaya konsepsiyasında subyektiv və fərdi yanaşma. Konsepsiya hər bir uşağın fərdiliyini onun üçün müstəqil və mənalı bir fəaliyyət yolu ilə açıqlamaq prinsipinə əsaslanır. Əsas anlayışlar: subyektiv təcrübə, təlim işinin metodudur [9, s.13-14].

Bu anlayışlar əsasında yaranan yanaşmalara aşağıdakılar daxildir:

A.A. Pligin konsepsiyasında əməkdaşlıq və seçim azadlığı prinsipinə əsaslanan şəxsiyyətyönlü bir yanaşma [3, s.6-10] mövcuddur.

N.A. Alekseevin konsepsiyasında hadisə prinsipinə əsaslanan [10, s.205-206] şəxsiyyətyönlü bir yanaşma əksini tapır. Bu tədqiqatları şagirdlərə humanist yanaşma, "şagirdə dəyərli münasibət" qayəsi birləşdirir. Tədqiqatlarda şəxsi dəyərlər sistemi insan fəaliyyətinin mənası kimi ortaya qoyulur. Şəxsiyyətyönlü təlimin vəzifəsi şəxsiyyətin inkişaf mühiti kimi pedaqoji prosesi şəxsi düşüncələrlə doyurmaqdır.

Şəxsiyyətyönlü təlim pedaqoji prosesin və sosial mühitin başqa bir iştirakçısı ilə qarşılıqlı əlaqədə şagirdin özünü inkişaf etdirməsi, özünü-reallaşdırması, özünü təsdiq etməsi üçün optimal şəraitin yaradılmasını təmin edir [9, s.13]. Şəxsiyyətyönlü təlim prosesi şagirdin sosial münasibətlər sistemində özünü göstərmək və özünüreallaşdırmaq istəklərindən dəstək alır. Burada əldə edilən kompleks nəticələr şəxsiyyətin hərtərəfli inkişafına zəmin yaradır.

Təhsil standartı məqsəd deyil, müxtəlif təhsil səviyyələrində fərdi inkişafın əsası kimi tədris materialından istifadənin istiqamətlərini və sərhədlərini müəyyən edən bir vasitədir. Bundan əlavə, standart təhsil pillələrinin və şəxsiyyətə uyğun tələblərin əlaqələndirilməsi funksiyalarını yerinə yetirir.

Şəxsiyyətyönlü təlim aşağıdakı bir sıra *prinsiplərə* əsaslanır:

• özünü aktuallaşdırma prinsipi - hər bir insan özünün intellektual, kommunikativ, fiziki və digər qabiliyyətlərini aktuallaşdırmaq və reallaşdırmaq ehtiyacı duyur, buna görə də şagirdlərin təbii və sosial cəhətdən qazanılmış imkanlarını təzahür və inkişaf etdirmək istəyini təşviq etmək və dəstəkləmək vacibdir;

• fərdiləşdirmə prinsipi - şagird şəxsiyyətinin fərdi psixoloji keyfiyyətlərinin formalaşması və inkişafı üçün şəraitin yaradılması;

• seçim prinsipi - seçim olmadan şagirdin fərdiliyinin inkişafı qeyri-mümkündür, ona görə də şagirdin daimi seçim şəraitində yaşaması, oxuması, tərbiyəsi, məqsəd, məzmun, forma və tədris prosesinin təşkili üsullarını seçmək səlahiyyətinə malik olması pedaqoji cəhətdən məqsədəuyğundur;

• yaradıcılıq və uğur prinsipi - fərdi və kollektiv yaradıcılıq fəaliyyəti hər bir şagirdin xüsusiyyətlərini inkişaf etdirməyə imkan verir. Müəyyən bir fəaliyyət növündə uğur əldə etmək fərdin özünü təkmilləşdirməsi üzrə gələcək işlərin həyata keçirilməsini stimullaşdırır;

• inam və dəstək prinsipi – pedaqoji fəaliyyətdə avtoritar üslubdan qəti şəkildə imtina, çünki bu, xarici təsir deyil, şagirdin təlim və tərbiyəsinin uğurunu müəyyən edən daxili motivasiyadır. Müəllimin rolu bilik, bacarıq və vərdişləri ötürmək deyil, şagirdin şəxsi potensialına əsaslanaraq və müvafiq təlim texnologiyalarından istifadə edərək müvafiq öyrədici təlim mühitini təşkil etməkdir. [7, s.96].

Qeyd etmək lazımdır ki, belə bir yanaşmanı praktikada tətbiq etmək bir sıra səbəblərə görə olduqca çətindir. Bu *səbəblər* aşağıdakılardır:

1. Şagird qruplarının komplektləşdirilməsi - 25 nəfərlik bir sinifdə - müəllim çox vaxt hər bir şagirdin fərdi xüsusiyyətlərini görə bilmir, hər bir uşağın subyektiv təcrübəsinə əsaslanaraq öyrənmə effektlərini qurmaqdan danışmır.

2. Təlim prosesinin “orta” şagirdə istiqamətləndirilməsi.

3. Müxtəlif fənlər üzrə şagirdlərə öz qabiliyyətlərini və əhəmiyyətli fərdi dəyərləri reallaşdırmağa imkan verən təşkilati şəraitin olmaması.

4. Bütün akademik fənlərə - həm uşaq üçün əhəmiyyətli olanlara, həm də "sevilməyən" fənlərə "eyni səviyyədə" diqqət yetirməyin vacibliyi.

5. Şagirdin təhsilin məzmununun mənimsənilməsi üçün sərf etdiyi səylərin deyil, bilik və bacarıqların mənimsəməsinin qiymətləndirilməsinin prioritet olması.

Müasir məktəbdə şagirdyönlü təlimin həyata keçirilməsi mürəkkəb və ağrılı prosesdir, lakin bunun çox vacib olduğunu düşünməyə əsas var. Şagirdlərin və pedaqoqların maraqlarını birləşdirən bu proses hər iki tərəfin ümumi məqsədə daha səmərəli nail olmasına gətirib çıxarır.

Şəxsiyyətyönlü təlim, ənənəvi dərsdən fərqli olaraq, ilk növbədə "müəllim-şagird" qarşılıqlı əlaqə formasını dəyişdirir. Müəllim şagirdin nəticələrinin təhlilinə deyil, əməkdaşlığa üstünlük verir. Şagirdin mövqeyi dəyişir-çalışqan bir performansdan fəal yaradıcılığa keçir, düşüncəsi fərqli olur: refleksiv, yəni nəticəyə yönəldilmiş olur. Əsas odur ki, müəllim yalnız bilik vermək deyil, həm də şagirdin şəxsiyyətinin inkişafı üçün optimal şərait yaradır [5, s.2]. Ənənəvi sistemdə təlim orta öyrənənə yönəldilmişdir. Şəxsiyyətyönlü təlimdə isə fərdin inkişafına və özünüinkişafa istiqamətləndirilmişdir [6, s.186].

Ənənəvi təlimin məqsədi bilik və bacarıqların mənimsənilməsi, çoxaldılmasıdır, şəxsiyyətyönümlü təlimin *məqsədi* isə aşağıdakılardan ibarətdir:

* tənqidi düşüncənin, dəyər yönlərinin formalaşması;

* şəxsi formalaşma və öz müqəddəratını təyinetmə.

Ənənəvi təlimlə şəxsiyyətyönlü təlim arasındakı əsas fərqləri aşağıdakı kimi xarakterizə etmək olar:

*Ənənəvi dərs:*

1.Bütün şagirdlərə müəyyən bir bilik, bacarıq və vərdişlər öyrədir.

2.Hər bir şagirdin özünün səmərəli şəxsi təcrübəsini toplanmasına kömək edir.

3.Təlim tapşırıqlarını, şagirdlərin iş formasını müəyyənləşdirir və onlara tapşırıqların düzgün yerinə yetirilməsinin nümunəsini nümayiş etdirir.

5.Şagirdləri özünün təklif etdiyi tədris materialı ilə maraqlandırmağa çalışır.

6.Şagirdlərin həqiqi maraqlarını müəyyənləşdirməyə və tədris materialının seçilməsi və təşkili ilə onlarla əlaqələndirməyə çalışır.

7.Geridə qalan və ya ən hazırlıqlı şagirdlərlə fərdi dərslər keçirir.

8.Hər bir şagird ilə fərdi iş aparır.

9.Şagird fəaliyyətini planlaşdırır və istiqamətləndirir.

10.Şagirdlərə fəaliyyətlərini planlaşdırmağa kömək edir.

11.Şagirdlərin nəticələrini qiymətləndirir, səhvləri qeyd edir və düzəldir.

12.Şagirdləri işlərinin nəticələrini müstəqil qiymətləndirməyə və səhvləri düzəltməyə təşviq edir.

13.Sinifdə davranış qaydalarını müəyyənləşdirir və şagirdlərin onlara uyğunluğunu izləyir.

14.Şagirdlərə davranış qaydalarını müstəqil şəkildə inkişaf etdirməyi və onlara əməl olunmasına nəzarət etməyi öyrədir.

15.Şagirdlər arasında yaranan münaqişələri həll edir; dürüstləri təşviq edir və günahkarları cəzalandırır.

*Şəxsiyyətyönlü təlim:*

1.Hər bir şagirdin öz şəxsi təcrübəsinin səmərəli toplanmasına kömək edir.

2.Şagirdlərə müxtəlif təhsil tapşırıqları və formaları seçməyi təklif edir, onları bu vəzifələrin həlli yollarını müstəqil axtarmağa təşviq edir.

3.Şagirdlərin həqiqi maraqlarını müəyyənləşdirməyə və tədris materialının seçilməsi və təşkili ilə əlaqələndirməyə çalışır.

4.Hər bir şagird ilə fərdi iş aparır.

5.Şagirdlərə fəaliyyətlərini özlərinin planlaşdırmasına kömək edir.

6.Şagirdləri işlərinin nəticələrini müstəqil qiymətləndirməyə və səhvləri düzəltməyə təşviq edir.

7.Şagirdlərə davranış qaydalarını müstəqil şəkildə inkişaf etdirməyi və onlara əməl olunmasına nəzarət etməyi öyrədir.

8.Şagirdləri aralarında yaranan münaqişə vəziyyətlərini müzakirə etməyə və müstəqil olaraq həll yollarını axtarmağa təşviq edir.

Şəxsiyyətyönlü təlim növünə, bir tərəfdən, təhsilin inkişafı istiqamətində ideya və təcrübənin növbəti hərəkəti, digər tərəfdən isə keyfiyyətcə yeni təhsil sisteminin formalaşması kimi baxmaq olar.

Şəxsiyyətyönlü təlim elə bir təlimdir ki, burada şagirdin şəxsiyyəti, özünəməxsusluğu, hər birinin subyektiv təcrübəsi ön plana çıxır. Şəxsiyyətyönlü təlim, şagirdin öyrənmənin mərkəzində olduğunu nəzərdə tutur - motivlərinin, məqsədlərinin, bənzərsiz psixoloji bazasının, yəni fərdin bir şəxs olduğunu düşünür [1, s.65-67].

Şəxsiyyətyönlü təlim eyni zamanda inkişaf edən şəxsiyyətin fikir və təcrübəsinin daha da hərəkəti olması, digər tərəfdən isə keyfiyyətcə yeni bir təhsil sisteminin formalaşması kimi qəbul edilə bilər.

**Problemin aktuallığı.** Təhsildə şəxsiyyətyönlüyün təmin edilməsi müasir dövrdə məktəbin və müəllimlərin həyata keçirməli olduqları ən mühüm pedaqoji problemlərdən biridir. Xüsusilə ibtidai siniflərdə təhsil prosesinin məzmununda bu amilə xüsusi diqqət verilməsi şagirdlərin bir şəxsiyyət kimi formalaşdırılması üçün ən zəruri şərtlərdəndir. İbtidai siniflərdə şəxsiyyətyönlü təhsilin reallaşdırılması şagirdlərdə şəxsi düşüncənin, məntiqi və tənqidi təfəkkürün inkişafına, eyni zamanda mənəvi cəhətdən sağlam şəxsiyyətin tərbiyəsinə bilavasitə təsir etdiyindən bu problem olduqca aktualdır.

**Problemin yeniliyi.** İbtidai təhsildə şəxsiyyətyönlü təhsilin daxili mexanizminin nələrdən ibarət olmasının araşdırılması özünün mahiyyət və məzmununa görə müasir dövrdə yeni pedaqoji problemlər sırasında mühüm yer tutur. Tədrisin bu yönümdə təşkilinin əsaslandırılması, bu zaman əldə rəhbər tutulacaq prinsiplərin nələrdən ibarət olması, şəxsiyyətyönlü təhsilin üstünlüklərinin əsaslandırılması və s. kimi problemlərə toxunulması, bu sahədə araşdırmaların aparılması təqdim olunan problemin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** İbtidai təhsildə şəxsiyyətyönlü təhsilin əsas mahiyyətinin nələrdən ibarət olması ibtidai siniflərdə dərs aparan müəllimlər üçün müəyyən praktik əhəmiyyətə malikdir. İbtidai siniflərdə müəllimlərin təlim prosesində şəxsiyyətyönlüyün təmin edilməsi üçün nələrə daha çox diqqət vermələri, tədrisdə onun spesifik xüsusiyyətlərinin nələrdən ibarət olduğunu nəzərə almaları və irəli sürülən bəzi müddəaları həyata keçirmələri tədris üçün müəyyən praktik əhəmiyyət daşıya bilər. Bu baxımdan ibtidai sinif müəllimləri və gənc tədqiqatçılar ondan praktik şəkildə istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Əliyeva Ş. Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. Modul: dərs vəsaiti AMKÇİD layihəsi tər. hazırlanıb. Bakı, ARTN və ARTİ, 2020, 297s.
2. Əliyeva Ş. Həmidova X., İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz bir mühitin yaradılması. Modul: dərs vəsaiti AMKÇİD layihəsi tər. hazırlanıb Bakı: ARTN və ARTİ, 2020,82s.
3. Афанасьева Н.С. Личностный подход в обучении [Текст] / Н.С. Афанасьева // Школьный психолог. – 2001. – № 32. – С. 40-43.
4. Болотов В.А. Компетентностная модель: от идеи к образовательной программе [Текст] / В.А. Болотов, В.В. Сериков // Педагогика. – 2003. – № 10. – С. 8-14.
5. Данилькевич А.В. Проектные методы и технологии обучения метапредметным действиям в образовательном процессе школы [Текст] / А.В. Данилькевич, М.Е. Козина // Психология и педагогика: теоретические и практичекие аспекты современных наук. – М.: МНЦПП, 2015. – С. 73-78.
6. Формирование универсальных учебных действий в основной школе: от действий к мысли. Система заданий / Под ред. А.Г. Асмолова. – М.: Просвещение, 2011. – 200 с.
7. Сериков В.В. Образование и личность. Теория и практика проектирования педагогических систем [Текст] / В.В. Сериков. – М.: ИК «Логос», 2009. – 272 с.
8. 8.Якиманская И.С. Личностно-ориентированное обучение в современной школе [Текст] / И.С. Якиманская. – М.: Сентябрь, 2004. – 108 с.
9. Якиманская И. С. Технология личностно-ориентированного образования. – М., 2000.
10. Alekseev N. A. şəxsiyyət yönümlü təlim: nəzəriyyə və təcrübə sualları: monoqrafiya / N. A. Alekseev. Tyumen: Tümen Nəşriyyatı
11. Амонашвили, Ш.А. Школа жизни / Ш.А Амонашвили. - М.., 2000.


**Email:** shahlar01@gmai.com

**Rəyçilər**: *ped.elm.dok., prof.* **M.İ. İlyasov**
*ped.ü. fəls.dok.* İ.**B. Əmirəliyeva**